Ədəbiyyat qəzeti

# Öyrənməkdən və öyrətməkdən usanmayan insan - Kamal Abdulla

*Yazıçı hardadır? Onu harda axtarmaq lazımdır? Yaşadığı həyatdamı, yoxsa yaşamadığı həyatın iləğımında?! Sözdəmi, cümlədəmi, mətndəmi!? Onu sözarası, cümləarası, mətnarası sükutda axtarmaq heç ağlınıza gəldimi?!*

**Kamal Abdulla**



Pərvanə BƏKİRQIZI

"Cürbəcür modernist, ultramodernist tablolar çəkən rəssamlar da ilk növbədə realist mənzərəni normal şəkildə çəkə bilməlidirlər. Sonrakı böyük və gözəl mətni qura bilmək üçün əlifbanı öyrənməyin zəruriliyi kimi" fikirləri Xalq yazıçısı Kamal Abdullanın yaradıcılıq haqqında düşüncələrini daha aydın izah edir... Kamal Abdulla mətnlərinin əlifbası şəksiz dastan mədəniyyətimizin incisi "Kitabi-Dədə Qorqud"dur. Və Mifdən Yazıya keçiddə yaranan "Kitabi-Dədə Qorqud" dastanına yeni interpretasiyaları ilə müəllif mətnin yeni, fərqli oxunuşunu təqdim edir. Dastan poetikasından yeni təhkiyəyə keçiddə Kamal Abdulla janr olaraq romana daha çox üstünlük verir. M.Baxtinin "yazıdan və kitabdan cavan" adlandırdığı romanın statiklikdən uzaq, dəyişimə və inkişafa uyğun təbiəti Kamal Abdulla yaradıcılığı timsalında Azərbaycan ədəbiyyatında yeni bir mərhələnin başlanğıcı oldu. Hadisənin düzxətli deyil, qeyri-xətli inkişafı, intertekstuallıq, metatəhkiyə, polifoniklik, janrqarışıqlığı, yeni mətn texnologiyası, mifyaradıcılığı Kamal Abdulla romanlarının strukturunda hakim mövqedə dayanır. Bu romanlar uzun-uzadı təhkiyəsi və ya müşküllərə cavab olan məntiqi ilə deyil, müəllifin önə çıxardığı sualları ilə də diqqət çəkir. "Mən tarixçi deyiləm, yazıçı deyiləm, nəhayət, zəlzələşünas deyiləm. Yaxşı, bəs mən kiməm? İlahi, mən axı niyə bu qədər sirr hərisiyəm?!" deyə başladığı ilk romanıyla müəllifin "Sirlərin sərgüzəşti" romanındakı "... sirrin ruhu ölümdən sonra da öz yaşamağına davam edir. Bəs əgər belə isə şirrin ruhunun sərgüzəşti sirrin ölümündən sonra nə cür baş verir?! Bunun özü sirr deyilmi?!" arasında da qəribə bir ardıcıllıq var. Zatən Kamal Abdulla mətnləri bir-birinin içərisində gizlidir, birinin yolu mütləq o birindən keçir. Əslində, vahid bir mətnin parçalarıdır "Yarımçıq əlyazma", "Unutmağa kimsə yox...", "Sehrbazlar dərəsi" və "Sirlərin sərgüzəşti" romanları. Bu mozaik rəsmin bütünü yalnız müəllifinə məlumdur. Oxucuları və tədqiqatçıları isə yeni parçanı gözləməyə məhkum. Və bu yalnızca mətnin sirr qatı ilə bağlı deyil. Kamal Abdulla mətnlərinin alt qatında təkcə sirr deyil, həm də mif layı bütün əsrarəngizliyi ilə özünü hifz edir. Bunu müəllifin "Mif ona görə güclüdür ki, sirrə malikdir" qənaəti də möhkəmləndirir. Elə burdaca müəllifin "Yazıçı hardadır? Onu harda axtarmaq lazımdır?" sualı düşüncəmizi yeni bir labirintə yönəldir. Bu labirintin qapısı Çiçəkli dağdan, Vəng mağarasından başlayır və Hacı Mir Həsən ağa Səyyaha doğru aparır. Yazıçının "Sirlər bir-birinə qarışmasın, yoxsa bu labirintdən çıxmaq olmaz" xəbərdarlığı Mətnin konfiqurasiyasının izahına xidmət edir.

Q.Flober, C.Barns, U.Eko yaradıcılığı ilə Kamal Abdulla mətnləri arasında intertekstual əlaqə implisiv və eksplisiv şəkildə iştirak edir. Bu mətnlərdə implisivliyin bütün forma və tipləri öz əksini tapır. Müəllifin təqdim etdiyi implisiv yaddaşın çoxqatlı strukturu mətndə şəbəkə yaradır. Hacı Mir Həsən ağa Səyyah və onun yaddaş qatlarındakı müxtəlif zaman-məkan dəyişimləri adresata ünvanlanan kodlaşmanın mükəmməl nümunələrindəndir. Amma bu da Yazıçını axtardığımız yer deyil.

Əbdürəhim bəy Haqverdiyev və Mirzə Səfərə yaxınlığında axtarmaq lazımdır Yazıçını. Yaradıcılığında yeni təhkiyə modelləşməsinə önəm verən Kamal Abdulla, ənənədə Ə.Haqverdiyev ruhuna varisliyi ilə yerini bəlli edir. Bu yaxınlığı "sözarası, cümləarası, mətnarası sükutda" axtaranda görmək olur. "Mətnin öz əndərunu" olduğu kimi, Yazıçının da öz əndərunu var. Belə olmasaydı, "Darıxan adamlar"da "Çeşmək" hekayəsinin xatırlanması, "Sirlərin sərgüzəşti"ndə "Pəri cadu"nun interpretasiyası olan odunçu Əhmədin sirri yeni mətnə çevrilməzdi. Və ya Mirzə Səfərin darıxan adamlardan olduğu sirr olaraq qalardı.

Sirr olmayan bir məqam var, bu da Kamal Abdulla yaradıcılığında mifik strukturların dominantlığıdır ki, o, özündə diaxronik və sinxronik aspektlərini birləşdirir. Mifin köməyi ilə keçmiş, bu gün və gələcəklə qovuşur. Bu isə nəsillər arasındakı mənəvi əlaqənin qorunmasını təmin edir.